Tamara Sadıq

## Bülbül

Bülbül sənin işin zaydı
Güllərin günlərin saydı
Heyif payız soyuq aydı
Gəlmisən toyuna bülbül.

Gəl göynətmə bu qəlbimi
Sığın mənə sevim səni
Dolaş könül çəmənimi
Gəl sarıl boynuma bülbül.

Xəzan olub bağça bağın
Solubdu şamama tağın
Saralıbdı solun sağın
Yaraşmır soyuna bülbül.

Sarı köynək yalınqatdı
Əlvan lələk qatbaqatdı
Çox oxudun səsin batdı
Yaraşmır boyuna bülbül.

Sən oxudun mən dinlədim
Yavrun olub mən inlədim.
Zaman ötdü çox sinlədim
Vurğunam huyuna bülbül.

Dimdiyində qətrə damcı
Yanğım üçün ver əlaçı
Susuz dodaq neylər tacı
Səp qəbrimə suyu bülbül.